## UNUDULMUŞ KİTABLAR QƏBİRİSTANLIĞI

Bu kitab *"Unudulmuş Kitablar Qəbiristanlığı"* adlı ədəbi kainatda bir-birinə qarışmış romanlar silsiləsinin bir hissəsidir. Bu silsiləni təşkil edən romanlar bir-birilə personajlar və süjet xətlərinin yaratdığı körpülər vasitəsilə bağlı olsa da, hər biri özlüyündə bütöv, müstəqil və tamamlanmış hekayədir.

*"Unudulmuş Kitablar Qəbiristanlığı"* silsiləsinin müxtəlif kitablarını istənilən ardıcıllıqla və ya ayrı-ayrılıqda oxumaq mümkündür; bu isə oxucuya hekayələr labirintini fərqli qapılardan, fərqli yollarla kəşf etmək və nəticədə, onu hekayənin dərinliyinə aparmaq imkanı verir.

# *“Küləyin kölgəsi” və “Mələyin oyunu” haqqında*

**“*Küləyin kölgəsi”* ispan ədəbiyyatında bir fenomenin müjdəçisidir.**

*La Vanguardia*

**Parlaq süjeti və möhtəşəm üslubu özündə birləşdirən nadir romanlardan biridir.**

*Sunday Times*

**Kütləvi ədəbiyyatın şah əsəri, müasir klassikadır.**

*Daily Telegraph*

**İlin ən yaxşı kitabıdır. Həm məlumat dolu, həm də hamı üçün oxunaqlıdır. Böyük ənənəyə söykənən öyrədici romandır, iç-içə keçmiş sirlər və lənətlər rus matroşkaları kimi bir-birini izləyir.**

*Le Figaro*

**Qabriel Qarsia Markes, Umberto Eko və Xorxe Luis Borxes birləşərək sehrli, dolğun, kəskin, həm də heyrətamiz bir ədəbi tamaşa yaradırlar.**

*The New York Times*

**“Küləyin kölgəsi” heyrətamizdir. Süjetin quruluşu ustalıqla işlənib, dil üzərində müstəsna hakimiyyət var... Ədəbiyyata ünvanlanan bir sevgi məktubu, hekayənin gənc qəhrəmanı kimi hekayə vurğunu olan oxuculara həsr edilib.**

*Entertainment Weekly*

**Bu kitab qotik romanın XIX əsrdə öldüyünü düşünənlərin fikrini dəyişəcək. Möhtəşəm, gizli tələlərlə dolu bir əsərdir; hətta yan süjetlərin belə öz yan süjetləri var. Safonun əlində hər səhnə, elə bil Orson Vells filmlərindən çıxıb. Onun dəyərini anlamaq üçün həqiqi romantik olmaq lazımdır; kim romantikdirsə, bu əsər onun üçün gözəl mütaliə olacaq.**

*Stiven Kinq*

**Safonun səhifələri oxucunu iki gün boyunca tamamilə ovsunlayır. Onun hekayə danışmaq istedadı qarşısında heç nə dayana bilmir.**

*El Mundo*

**Bir daha əmin oldum ki, zəngin və uzun bir romanın içinə dalıb getmək necə möhtəşəmdir... Bu əsərdə hər şey var: cazibə, risk, intiqam və müəllifin ustalıqla toxuduğu sirr. Safon hətta möhtəşəm Çarlz Dikkensi də geridə qoyur.**

*The Philadelphia Enquirer*

**Tər-təmiz sehrdir, bu romanı başqa cür təsvir etmək olmur. Tarix və yazı, süjet və xarakter, personajlar və talelər – hər şey mükəmməl şəkildə tamamlanır. Beş yüz səhifəlik kitabı əlindən yerə qoymaq mümkün deyil. Dilinin təsiri isə ətir kimi yayılır – cazibədar, sentimental və uzunömürlü.**

*Hamburger Abendblatt*

**Həqiqətən də, möhtəşəmdir... hekayə heyrətamiz dərəcədə dolğun qapanır. Yumor, qorxu, siyasət və romantika mükəmməl dozada verilib... Safonun ritm və kontrast üzərindəki bacarığı sayəsində dörd yüz səhifə inanılmaz sürətlə oxunur.**

*Sunday Telegraph*

**"*Küləyin kölgəsi*"ndə hər şey heyrətamiz dərəcədə incədir. Üslubu parlaqdır, süjet isə zərif ustalıqla toxunulub... Safonun romanının özünəməxsus ab-havası var, oxucunu cəzb edir. Oxumağa dəyər.**

*The Observer*

**Qorxulu, erotik, təsirli, faciəvi və sirr dolu romanlardan zövq alan hər kəs dərhal yaxınlıqdakı kitab mağazasına qaçıb "*Küləyin kölgəsi*"ni əldə etməlidir.**

*The Washington Post*

**İddialı əsərdir, müxtəlif üslubları (ənənəvi komediyadan tarixi qeydlərə və mərkəzində sirrin olduğu üsluba qədər) birləşdirərək cazibəsini heç itirmir.**

*Qué Leer*

**Oxucunu cəzb edir, güclü təxəyyül və möhkəm qurulmuş struktur var. Oxucuya içində daşıdığı əbədi gənci yenidən tapmaq imkanı verir.**

*El Periódico*

**"*Küləyin kölgəsi*" böyük bir hekayə üçün lazım olan hər şeyə sahibdir: məhəbbət, xəyanət, ölüm, nifrət və dostluq. Elə buna görə də ilin kitabına çevrilməsi təəccüblü deyil.**

*Berlin Literature Critique*

**Karlos Ruis Safon böyük bir nağıl təhkiyəçisidir.**

*Marqaret Etvud*

**Sevinc hissi ilə bəyan edirəm ki, “*Mələyin oyunu*” möhtəşəm bir romandır – gözəl strukturu var, müəllifin əvvəlki əsərlərindən də yaxşıdır. Daha güclü, daha qətiyyətlidir. Oxuyarkən həm çox əyləndim, həm də qəribə bir narahatlığın əsirinə çevrildim. Safon Barselonanın Dikkensi və çağdaş ədəbiyyatın ən istedadlı hekayəçisidir.**

*Corriere Della Sera*

**Safon XIX əsrin roman ənənəsinə öz layiqli yeri ilə qoşulur. Ən böyük nümayəndəsi Dikkens olan bu ənənə geniş oxucu auditoriyasına çatmaqla, əbədi dəyər daşıyan əsərlər də yaratdı. XIX əsrin qorxu ədəbiyyatından qaynaqlanan “*Mələyin oyunu*” dramatik gərginliyin arxasında gizlənən bütöv bir ədəbi cərəyan haqqında parlaq şərhdir.**

*Frankfurter Allgemeine Sonntagszeitung*

**Karlos Ruis Safon yazıçı olmağın nə demək olduğunu yenidən ixtira etdi. Onun hekayə qurmaq bacarığı artıq özlüyündə ayrıca bir janrdır.**

*USA Today*

**Necə ki “Don Kixotun” müəllifi öz dövründə diqqətini cəngavərlik romanlarına yönəltmişdi, Safon da müasir populyar janrlarla oynayır. Nəticə: oxucunu səhifədən səhifəyə aparan, hər açılan sirrin yerinə yeni sirr gətirən mətndir.**

*Deutschlandradio Kultur*

**Onun təşəbbüsü həm cəsarətli, həm ciddi, həm də təsirlidir. İspaniyanın XX əsrdəki qaranlıq tarixini hekayəsinə qatmaq bacarığı isə ədəbi məharəti qədər, həm də diqqətəlayiqdir. Bu yalnız bir şəhərin deyil, bütün dünyanın sərvətidir.**

*The Times*

**Onun dili həm zəngin, həm də gözəldir, bu sehrdən qurtulmaq çox çətindir.**

*Die Welt*

**“Safon köhnə Barselonanı yenidən təsvir edir. Amma bu roman öz sələfi ilə müqayisədə həm tamamlayıcı, həm də onun əksidir. Əvvəlki əsər mütaliənin ekstazını göstərirdisə, bu əsər yazıçının iztirablarını tədqiq edir.**

*The Independent*

**Safon öz amansız ritmi ilə oxucunu heyran edir; sehrli və fantastik yayındırmalarla doludur.**

*The Guardian*

**Müəllifin Dikkens sevgisi bütün əsərə hopub və kitabların insanı dəyişdirmə gücünə inanan hər kəsi ovsunlayır. "*Mələyin oyunu*" XIX əsrin klassiklərindən ilham alsa da, tamamilə orijinal və dərin duyğulu bir əsərdir.**

*The Observer*

**Safon yaddaşı oyandırmaqda ustadır. Onun bədii gücə olan inamı oxucu üçün həm doğma, həm də yoluxucudur.**

*Financial Times*

**"*Küləyin kölgəsi*" ilə tanış olan oxucu "*Mələyin oyunu*"nda yenidən "*Unudulmuş Kitablar Qəbiristanlığı*"*na* qayıdacaq. Ekonu yada salan bu sirli labirintdə kitablar öz oxucularını seçir. Fövqəladə qotik macəradır.**

*Spectator*

**"*Küləyin kölgəsi*"nin sehrinə düşənlər "*Mələyin oyunu*"na müqavimət göstərə bilməyəcəklər. 1920-ci illər Barselonasından keçən bu əsər bizi yenidən sirli, qotik dünyaya aparır. Burada gənc yazıçı David Martin qeyri-mümkün görünən bir saziş bağlayır: öz həyatının və taleyinin dəyişməsi müqabilində həyatları dəyişdirə bilən bir kitab yazacaq. Sadəcə möhtəşəm!**

*The Bookseller*

**Çox şey göründüyü kimi deyil, bu da əsərin cazibəsinin yarısını təşkil edir. "*Mələyin oyunu*" "*Küləyin kölgəsi*"nin öncülü sayılsa da, həm də müstəqil bir əsərdir – hekayə nəql etmənin sevincinin və ədəbiyyatın hüzurunun tərənnümüdür.**

*Sunday Telegraph*

**"*Küləyin kölgəsi*"nin müəllifindən yeni, ləzzətli bir sirr romanı. Safonun üslubunda Edqar Alan Po, Xorxe Luis Borxes, Arturo Peres-Reverte və bir az da Stiven Kinqin izi var.**

*Kirkus Review*

**Qeyri-adi gərginlik, Bram Stoker ab-havası, borxesvari bilik, çoxqatlı süjet: Ruis Safon bütün üslublarda mükəmməl parlaqlıq nümayiş etdirir.**

*Lire*

KARLOS
RUİS SAFON

# CƏNNƏT MƏHBUSU

İspancadan tərcümə:
Rəşad Səfər

qanun nəşriyyatı

CARLOS
RUIZ ZAFÓN

# *El*
# PRISIONERO
# *del* CIELO

"Cənnət məhbusu" ispan yazıçısı Karlos Ruis Safonun məşhur "Unudulmuş Kitablar Qəbiristanlığı" (*"El Cementerio de los Libros Olvidados")* silsiləsinin üçüncü romanıdır. Əsərdəki hadisələr 1957-ci ildə Barselonada baş verir, "Küləyin kölgəsi" (*"La Sombra del Viento")* və "Mələyin oyunu" (*"El Juego del Ángel")* romanlarının qəhrəmanlarını birləşdirir.

Romanın mərkəzində Daniel Sempere və onun dostu Fermin Romero de Torres dayanır. Ferminin sirli keçmişi və İspaniyada vətəndaş müharibəsindən sonrakı dövrün qaranlıq hadisələri yavaş-yavaş açılır. Kitab mağazasına gələn sirli bir adamın qoyub getdiyi müəmmalı məktub keçmişin dərinliklərində gizlənmiş faciəvi bir hekayəni üzə çıxarır. Danielin ailə sirləri və Ferminin keçmişdəki dustaqlıq illəri bir-birinə qarışaraq oxucunu həm emosional, həm də düşüncə baxımından sarsıdır.

Safon bu əsərdə tarixi reallığı, sirr və fitnə-fəsad elementlərini, eyni zamanda, dostluq, sevgi və xatirənin gücü kimi universal mövzuları birləşdirir. Safonun üslubu hər zamankı kimi sehrlidir, o, tarixi realizmlə mistikanı, sevgi ilə xəyanəti, yaddaşla azadlığı ustalıqla birləşdirir. *"Cənnət məhbusu"* həm ayrıca roman kimi oxuna bilər, həm də Safonun dörd hissədən ibarət ədəbi silsiləsindəki hadisələri birləşdirən tamamlayıcı halqasıdır.